*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 42-49* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.42*

# Məhəmməd Hadinin şeirləri "Dəbistan" jurnalında

**Sevil Qaraşova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: dr.alxansoy@mail.ru

**Annotasiya.** XX əsr Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixinin görkəmli simalarından olan Məhəmməd Hadinin yaradıcılığında maarif, elm, təhsil və mədəniyyətin təbliği məsələləri xüsusi yer tutur. Mütəfəkkir istər poetik, istər publisistik və nəsr, istərsə də tərcümələrində maarif və mədəniyyət məsələlərinə böyük önəm vermiş, elmi bəşəriyyəti aydınlığa çıxaracaq günəşə, elmsizliyi isə qatı qaranlığıa, cəhənnəm əzabına bənzətmişdir. O, elmli adamları mənsub olduqları millətin və cəmiyyətin bəzəyi, elmsiz adamları isə ancaq yandırılmağa gərək olan səmərəsiz quru ağac hesab etmişdir. Elmə, məktəbə, maarifə, mətbuata dair fikirlərini həyati materiallar və əksər vaxtlarda dahi şəxsiyyətlərin sözləri, fəlsəfi və müqəddəs kitablardan, xüsusilə Qurandan götürdüyü kəlamlarla qüvvətləndirən M.Hadi maarifi azadlıq və bərabərliyin açarı hesab edir, millətinin tərəqqi və təkamülünü məhz maarif, elm, təhsil və mədəniyyətin inkişafında görürdü. Bu məsələlərin şərhi M.Hadinin sağlığında müxtəlif mətbuat orqanlarında dərc etdirdiyi bir sıra əsərlərində olduğu kimi, "Dəbistan" jurnalında çap olunmuş poetik əsərlərinin də əsas mövzu və ideyasını təşkil edirdi.
**Açar sözlər:** maarif, mədəniyyət, millət, azadlıq, şəxsiyyət, tərəqqi

**Məqalə tarixçəsi:** göndərilib – 16.07.2024; qəbul edilib – 26.07.2024

# Poems by Muhammad Hadi in "Dabistan" magazine

**Sevil Garashova**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: dr.alxansoy@mail.ru

**Abstract.** In the works of Muhammad Hadi, one of the outstanding figures of the history of Azerbaijani literature and public opinion of the twentieth century, the issues of enlightenment, science, education and cultural development occupy a special place. The thoughtful poet in his poetic, journalistic and prose works, as well as in his translations attached great importance to the issues of education and culture, compared science to the sun that will enlighten mankind, and ignorance to continuous darkness and hell torment. He regarded learned people as the adornment of the nation and the society to which they belonged, and uneducated people as worthless dry wood that should be burned. M.Hadi, who supported his views on science, school, education and the press with vital materials and, for the most part, the words of geniuses, philosophical and holy books, especially from the Koran, considered education the key to freedom. and equality, and the progress and evolution of the nation is precisely education, science, education and he saw in the development

of culture. Interpretation of these issues was the main theme and idea of M.Hadi's poetic works published in the magazine “Dabistan”, as well as in a number of works published in various press organs during his lifetime.
**Keywords:** education, culture, nation, freedom, personality, progress

**Article history:** received – 16. 07.2024; accepted − 26.07.2024

## Giriş / *Introduction*

Azərbaycanda ana dilində uşaqlara məxsus dövri mətbuat yaratmaq ideyası XIX əsrin doxsanıncı illərində yaransa da, bu ideyanı həyata keçirmək XX əsrin əvvəllərində mümkün olmuş, Bakıda qabaqcıl Azərbaycan maarifçi ziyalılarının gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində 1905-1920-ci illər arasında “Dəbistan”, “Rəhbər” və “Məktəb” jurnalları nəşr edilmişdir. Bu jurnallar içərisində ilk uşaq mətbuat orqanı olaraq “Dəbistan”ın Azərbaycanda maarif və mədəniyyətin təbliğində və uşaq ədəbiyyatı nümunələrinin yaranmasında xüsusi xidmətləri olmuşdur.

Birinci nömrəsi 1906-cı il aprelin 16-də çıxan “Dəbistan” ilk nömrədən 1906-cı il noyabr ayının 15-ə qədər 15-ci nömrə də daxil olmaqla Əlisgəndər Cəfərzadə və Sultanməcid Əfəndizadənin müştərək naşir və redaktorluğu ilə çıxmış, M.Əfəndizadənin redaksiyadan ayrılması səbəbindən 16-cı nömrədən, yəni 1906-cı ilin 7 dekabrından 1908-ci ilin martına qədər Ə.İsgəndərzadə tərəfindən təkbaşına idarə olunmuşdur. Nəşr fəaliyyəti çox da uzun olmayan “Dəbistan”ın “birinci ildə 18 nömrə, ikinci 1907-ci ildə 7, üçüncü 1908-ci ildə 2 nömrəsi çıxmışdır” [13, s.48].

“Dəbistan” jurnalının çox zəngin və rəngarəng proqramı var idi. “Nəzərdə tutulmuşdu ki, burada uşaqların və gəncliyin əqli və mənəvi inkişafına kömək edə biləcək müxtəlif məndəricəli və səciyyəli şeir, hekayə, tərcümələr, elmi-kütləvi, əxlaqi-didaktik məqalələr, əyləncəli materiallar nəşr olunsun. Ata-anaları müasir elmi-tərbiyə məsələləri ilə tanış etmək niyyəti ilə jurnala “Valideynlərə məxsus vərəqə” də əlavə edilmişdi” [2, s.355].

Naşir və redaktorlarla yanaşı, jurnalın işində dövrün əsas ədəbi simaları – Həsən bəy Zərdabi, Sultan Məcid Qənizadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Abdulla Şaiq, Abdulla bəy Divanbəyoğlu, Mirzə Həsib Qüdsi, Süleyman bəy Əbdülrəhmanbəyov, Əliağa Həsənzadə, Həsən bəy Ağayev, Məhəmməd Əmin Rəsulzadə, Abdulla bəy Əfəndizadə və başqaları yaxından iştirak edirdilər ki, onlardan biri də Məhəmməd Hadi idi.

## Əsas hissə / *Main Part*

M.Hadi yaradıcılığının ilk illərində “Həyat”, “İrşad”, “Təkamül”, “Yoldaş” qəzetləri və “Füyuzat” jurnalı ilə yanaşı “Dəbistan” jurnalı ilə də əməkdaşlıq etmiş, jurnalda məktəb, maarif və mədəniyyətin cəmiyyətin həyatında oynadığı rolu özündə əks etdirən şeirlərini dərc etdirmişdir.

M.Hadinin “Dəbistan”la əməkdaşlığı jurnalın 2 avqust 1906-cı il tarixli 8-ci nömrəsində çap etdirdiyi “Lövheyi-təsviri-maarif” şeiri ilə başlanır [3, s.10-11].

*Vətən övladı! Ha qeyrət qələn təhsili-irfanı,*
*Qalan mənadır ancaq, bu nəqş, əlbət, olur fani.*

– misraları ilə başlanan 37 beytlik bu əsər qəsidə formasında yazılmış, müəllif son beytdə imzasını “Məhəmməd Hadiyi-Əbdülsəlimzadə Şirvani” kimi göstərmişdir [12, s.46]. Jurnalda şeirin sonunda belə bir qeyd vardır: “Bürhani-tərəqqi”dən. “Bu isə M.Hadinin həmin vaxt Həştərxanda yaşaması, M.L.İsmayılzadənin redaktorluğu ilə çıxan “Bürhani-tərəqqi” qəzetində işləməsi və bu şeirin də ilk dəfə həmin qəzetdə çap olunmasına işarədir” [2, s.168].

Məktəb və təhsilin, maarif, elm və mədəniyyətin cəmiyyətə, insanlığa, ümumən bəşər övladına verəcəyi xeyirlər barədə müəllifin düşüncələrinin məhsulu hesab edilə bilən bu əsəri müəllifin elmi öyrənməyə çağırışı da adlandırmaq olar. “Vətən övladı, elmi öyrənməyə qeyrət edin!” xitabı ilə başlanan, “Yatmaq vaxtı deyil, sübh açılmış, aləm nura boyanmışdır, sən də ayıl və haqqını tələb et” nidaları ilə bitən bu əsərdə maarifi həqiqət, ziya, insan idrakını hər cür pisliklərdən təmizləyən, onu yaradılmışların əşrəfi kimi yaşamağa sövq edən bir vasitə kimi qiymətləndirən müəllif fikirlərinin doğruluğunu isbat üçün elm və təhsil barədə Quranın “Ütlubul elmü minəl-məhdi iləl-ləhi” ayəsidən (Beşikdən qəbrədək təhsil edək adabü irfanı), Məhəmməd peğəmbərin (s) adı ilə bağlı hədislərdən (Əgər Çin ölkəsində olsa cuyəndə olaq elmi; Aləmi seyri-sülukimdə cəhalət əhlini gördüm düçari qəhri-Rəbbani” və s.), Həzrət Əlinin(s) adı ilə bağlı hikmətli sözlərdən (Pədərsiz kəs yetim olmaz, yetim ol kimsədir, əlhəqq ki, yoxdur elmü irfani və s.) istifadə edir.

“Cəhalət bir mərəzdir, yox əlacı elmdən başqa”, – deyən M.Hadi çox doğru olaraq bu fikrə gəlir ki, maarif çeşməsindən doyunca dirilik suyu içməyənlər yer üzündə səfil, sərgərdan, kölə kimi yaşamağa məhkumdurlar. M.Hadinin fikrinə görə, hansı məmləkətdə maarifə, təhsilə qiymət verilir, həmin məmləkətlərin əhalisi insan kimi yaşamaqla yanaşı, azadlıq və hürriyyətlərini də əldə etməyə müvəffəq olmuş, yaxud azadlığı əldə etmək üçün mübarizə yollarını axtarmaqdadırlar. Maarif, mədəniyyət və təhsil cəhətdən geri qalmış ölkələrdə isə zülm və sitəm hökmfərmadır. Hüququnu anlamayan insanın əsarət boyunduruğu altında qul kimi diri ikən ölü halında yaşaması qanunauyğun hal, təbiət və cəmiyyətin hökmüdür. “Dağılmaz küfr ilə bir mülk, zülm ilə olur viran”, – deyən müəllif yəqinliklə bildirir ki, zülmü bərqərar edən, onun ayaq tutub yeriməsinə rəvac verən elmsizlik, maarifsizlikdir. Məhz məktəb və maarifə yetərincə qiymət verilməməsinin nəticəsidir ki, İran zülm və sitəm səhnəsinə dönüb (əslində şair yaşadığı ölkəni, yəni Rusiya və Rusiyanın tərkibində olan Azərbaycanı nəzərdə tuturdu və burada İranın adının çəkilməsi senzuradan yayınmaq məqsədi güdürdü) və:

*Budur, viran edibdir zülm darül-mülki-İranı.* [3, s.10-11]

Bütün tərəqqi, inkişaf və bəşəriyyətə xeyirlər verən kəşflərin maariflə, təhsillə, elm öyrənməklə mümkün olduğunu bəyan edərək:

*Maariflə qılıbdır əhli-aləm kəsbi-ünsiyyət,*
*Maarif eyləmiş heyvandan təmyiz insanı.*
*Maarifsiz bu aləm bir xarababadi-vəhşətdir,*
*Maariflə təməddün eyləmişdir aləmi-fani.*
*Maarif sayəsində kəşf olundu bunca sənətlər,*
*Maariflə tərəqqi eyləmişdir qövmi-nəsrani,* [3, s.10-11]

– deyən M.Hadi fikrini bir qədər də konkretləşdirərək bildirir ki, “Cəhalətdir əsası zülmü cövri-xanimansuzun”. Zülmün kökünü qazmaq, təməlini uçurmaq üçün bir yol var, o da:

*Maarif olsa zülmün məhv olur, əlbəttə, bünyanı.* [3, s.10-11]

Mövzu, məzmun, forma və ruhu etibarı ilə “Həyat” qəzetində dərc etdirdiyi “Lövhi-məkatib”, “Məktəb nə demək..” şeirləri ilə səsləşən beş bəndlik müsəddəs formalı “Məktəbi-darül-ədəb” şeiri [4, s.132-133]. M.Hadi lirikasının gözəl nümunələrindəndir. Şairin ilk kitabı olan “Firdovsi-ilhamat”da “Məktəb şərqisi” adı ilə nəşr olunmuş və sonrakı kitablarda da bu adla getmiş şeirdə məktəb insanlığı zülmətdən işığa çıxaran, ümməti doğruluq qapısına yönəldən bir yol kimi tərənnüm olunur. Bir maarifçi olaraq M.Hadinin qənaətinə görə, məktəb vətən övladına təhsillə bərabər, ədəb, əxlaq, mərifət, vətən sevgisi, millət təəssübkeşliyi aşılayan bir məbəddir. Məktəbdə qazanılan savad sayəsində bəşər övladı düçar olduğu bəlalardan qurtula, ona gizli olan sirləri aşkara çıxara, dünyada baş verənləri qədərincə anlaya və öz müqəddəratını həll edə bilər. Müəllif qeyd edir:

*Azmışlar üçün elmü ədəb nuri-səhərdir,*
*Cəhl ilə kor olmuşlar üçün köhl bəsərdir,*
*İncana şərəfbəxş fəqət elmü hünərdir,*
*Bimərifət adam canlı yox xüşk şəcərdir.* [4, s.132-133]

Dövrünün maarifpərvər ziyalıları kimi, M.Hadi də o fikirdə idi ki, azmışları aydın, doğru yola çıxaran, cəhalətlə kor olmuş gözləri açan dərman, insana şərəf bəxş eləyən elm və ədəbdir ki, bunlar da məktəb, maarif və müəllim olmadan mümkün deyil. "Mərifətsiz, elmsiz adamla cansız, faydasız, qurumuş ağac eynidir", – qənaətində olan şair bunları nəzərə alaraq hər bəndin sonunda aşağıdakı beyti nəqərat kimi təkrar edir:

*Darül-ədəbin bilməliyiz qədrini, millət,*
*Göstərməli ikmalına olduqca həmiyət.* [4, s.132-133]

On beş beytlik qəsidə formalı "Maarifə dair" şeiri [5, s.194-195] mövzu və ideyaca yuxarıda qısaca şərhini verdiyimiz əsərlərlə yaxından səsləşir.

Əvvəlki şeirlərində olduğu kimi, bu əsərində də şair məktəb və maarifin cəmiyyətin həyatındakı müsbət rolunu yüksək qiymətləndirir, bildirir ki, məktəb ədəb çiçəklərinin cəm olduğu bir gülüstandır. Boş-boş xülyalarla məşğul olmaq zamanı deyil. Dövrümüz mədəniyyət əsri, insanların öz hüquqları uğrunda mübarizə əsri olduğundan biz də hürriyyət və mədəniyyət qatarına qoşulmağa məcburuq. Avropalılardan ibrət götürməyin zamanı yetişib. Nə qədər ki, maarif və təhsildən uzağıq, əhvalımız düzəlməkdənsə, günü-gündən fənalaşacaq:

*Zənciri-əsarətdə yaşar əhli-cəhalət,*
*Məhkumların gün kimi bəsbəlli zəvalı.* [5, s.194-195]

"Məhkumluqdan, əsarətdən qurtarmağın yolu məktəbdən, maarifdən, elmi öyrənib onu bəşər həyatına tətbiq etməkdən başlanır" tezisini irəli sürən və bu ideyasını əsərlərində dönə-dönə müxtəlif forma və üsullarla isbata çalışan M.Hadi "Bədayeyi-təbiət" şeirində [4, s.194-195] təbiətin bahar fəslini təsvir edir. İlk baxışda peyzaj lirikası nümunəsi təsiri bağışlayan şeir, diqqət yetirilərsə, təbiət şeiri deyil, ictimai-siyasi lirikanın gözəl nümunəsidir. Şeirin ilk yeddi beytində təbiətin yaşıl dona bürünməsindən, gülə, laləyə, çiçəyə baxıb yarını xəyalında canlandırmasından, meşələrin "ərzi-lətafət" etməsindən, "Güllər gülüyor, quşlar oxur, feyz saçır bad" kimi könül açan məsələlərdən danışan müəllif səkkizinci beytdən başlayaraq obyekti dəyişir. Təbiət yerindədir, lakin quşların nəğməsi ürək yandıran nalə və fəryadla doludur:

*Möhnətzədələr hər biri bir dürlü nəvadə,*
*San şivən edirlər bu çəmənzari-fənadə.*
*Səyyadi-sitəmpərvərə nifrin ediyorlar,*
*Cəlladi-cəfagüstərə təlin ediyorlar.*
*Zülm əhli xərab eylədi gülzari-vücudu,*
*Eyvah, sitəm məhv elədi bağı-şühudu.* [6, s.193-194]

Hələ bu hamısı deyil. Zülmün xaraba qoyduğu təbiətdə bulaqlar hüznlü bir səslə axır, kəsilmiş, doğranmış ağacların halına ağlayır. Bir qədər əvvəl ürəyi sevinclə dolu olan şair bunları gördükdə, yaranmışların bir-birinə, əslində insanın insana qənim kəsildiyini xəyalında canlandıranda fəna gülzarının qönçəsi kimi çöhrəsinin solması təbiidir. Bu təbiiliyin müqabilində aşağıdakı sualların meydana gəlməsi də qanunidir:

*Aya bu nasıl mənzəreyi-faciəzadır,*
*Hər "pərdəsi", hər "fəsli" səzavri-bükadır?*

*Hər zərrədə məşhud olur asari-fəlakət,*
*Bir cövhəri-qəmdənmi doğulub tifli-təbiət?* [6, s.193-194]

Sualllarin cavabı aydındır və bu sualları M.Hadi təkrar-təkrar özü cavablandırmışdır: Hürriyyət, müsavat olmayan yerdə yer üzü sitəm səhnəsi, bəşər övladının yaşayışı faciədir.

“Ricayi-vətən” şeiri M.Hadinin dil baxımdan ən sadə, anlaşıqlı şeirlərindən biridir. Dörd beytlik uşaqlar üçün nəzərdə tutulmuş bu hikmətamiz şeirdə mənasının anlaşılması çətin olan söz yoxdur və bir-iki sözü çıxmaqla sözlərin demək olar ki, hamısı türk mənşəli, əsl Azərbaycan sözləridir. Şeiri olduğu kimi veririk:

*Bəsdir, yetər oğlum, dur, oğul, dur, daha yatma,*
*Namusu, həyanı, ədəbi uyğuya satma!*
*Ey sevgili övlad, ayıl, Allahı sevərsən,*
*Gün doğdu, hamı durdu, yatan bircə özünsən.*
*Yoldaşlarına, sil gözünü yaxşı bax, oğlum,*
*Onlar yetib istəklərinə, sən uzaq, oğlum.*
*Başdan papağın, ya başını qapdıracaqdır –*
*Ol yol gedən adəm ki, yol üstü yatacaqdır.* [7, s.37]

Şərhə ehtiyac görmürük və bircə onu əlavə etməklə kifayətlənirik ki, “M.Hadinin dili çətindir, onu başa düşmək olmur”, – deyə gileylənənlər hərdən-hərdən əzaba qatlaşıb bu sözlə tablo yaratmağın əvəzsiz ustadı olan dahi şair və mütəfəkkirin əsərlərini oxusunlar və onda onun anlaşıqlı dildə yazdığı çoxlu şeir, məqalə və elmi əsəri ilə rastlaşacaq, üslub və dil gözəlliyinin şahidi olacaqlar.

M.Hadinin “Dəbistan”da dərc etdirdiyi şeirlərindən biri də “Arizuyi-dil” əsəridir [8, s.79-81]. Bu şeirin digər bir variantı “Fəzaili-insaniyyə: Məbuslarımıza xitab” adı ilə “Dəbistan” jurnalından əvvəl “Füyuzat”da dərc olunmuşdur [9]. Şair şeirdə bəzi əlavələr etməklə onu “Dəbistan”da da çap etdirməyi lazım bilmişdir.

Aşağıdakı ilk səkkiz misra “Füyuzat” jurnalındakı mətndə yoxdur:

*Olmarızmı həqqi-insaniyyədən biz zövqyab,*
*Yoxsa dünyada nəsibi-millət olmuşdur əzab?*
*Kimsəyə olmur əsərbəxşa fəğanü dadımız,*
*Aləmi yandırmayır bilməm neçin fəryadımız?*
*Sanma atəşdir ki, rövzənlərdən olmuş şölədar,*
*Ahi-cangahi-fəqirandır könüllərdən çıxar.*
*Ah, əmniyyətlə olmazmı vətən cənnətmisal,*
*Etmərizmi yari-ümmidi dərağuşi-vüsal?* [8, s.79-81]

Bundan başqa, “Dəbistan”dakı 18-ci: “Qönçəyi-elmü ədəblə xüldzar olsun vətən, Zibi-ədlü dad ilə pirayədar olsun vətən” beyti “Füyuzat”da 14-cü beyt olaraq getmişdir:

*Zibi-ədlü dad ilə pirayədar olsun vətən,*
*Haizi-şanü şərəf bir xüldzar olsun vətən* [9, s.39]

Digər bir fərq isə şeirin sonluğunda özünü göstərir. Belə ki, “Dəbistan”da şeir:

*Niyyəti-xalis ilə meydana girsək, Hadiya,*
*Bəxtimiz nəcmi olur zinətfəzayi-etila,* [8, s.79-81]

– beyti ilə bitdiyi halda, bu beyt “Füyuzat”da yoxdur.

“İrfandır” rədifli “Sevgili şagirdlərimizə ərməğan” şeiri şagirdləri məktəbə təqrib niyyəti ilə qələmə alınmış, mövzuca və məzmunca M.Hadinin “Dəbistan”da maarif və elmin faydası barədə yazdığı əsərlərlə eyniyyət təşkil edir.

*Dəbistan bir qəfəs, şagirdlərdir bülbüli-lahut,*
*Dəbistan ləfz, onun mənayi-mənidarı irfandır,* [10, s.10]

– beyti ilə tamamlanan bu şeirdən başqa M.Hadinin “Dəbistan”ın 4-cü nömrəsində “Dünya sahəyiqəmdir” adlı, “Olmasın” rədifli on beytlik bir qəzəli də dərc olunmuşdur [8, s. 10]. Bu ictimai məzmunlu əsəri M.Hadinin bəşər tarixi barədə düşüncələri də adlandırmaq olar.

Mahiyyət, məndəricə və ideyaca tutumlu, həcmcə çox da böyük olmayan bu əsərin bütün beytləri bədii sual əsasında qurulmuşdur. İlk iki beytdə oxuyuruq:

*Gülşəni-aləmdə bir gül varmı bixar olmasın?*
*Hansı bülbüldür cəfayi-xardən zar olmasın?*
*Gördünüzmü bir çiçək bağı-fənadə solmasın,*
*Hansı bir nəxli-əməl vardır ki, bibar olmasın?* [10, s.10]

Suallara veriləcək cavablar, təbii ki, aydındır. Gülü tikansız, bülbülü gülün aşiqi olan qızılgülün tikanlarının cəfasından ayrı təsəvvür etmək olmaz. Sualın qoyuluşu başqa mətləblərdən xəbər verir. Olmazdımı gül tikansız yaranaydı, bülbül də məşuquna yetmək üçün əzablara düçar olmayaydı? Açan hər bir çiçəyin solması təbiidir. Barsız xurma ağacı olmadığı kimi, əvəzsiz, nəticəsiz əməlin də olmadığı təbiətin qanunudur. Elə iş görməli, elə yaşamalısan ki, çiçək kimi solub gedəndən sonra da rəhmətlə xatırlanasan və elə əməl sahibi olmalısan ki, əməllərinə görə xəcalət çəkməyib, əksinə, fəxarət hissi keçirəsən.

İnsanın acizliyinə dözməyən, bəşəriyyətin gələcəyinə böyük ümidlərlə baxan M.Hadi bildirir ki, insanlığa, bəşəriyyətə xidməti özlərinə şərəf işi hesab edən, şəxsi mənafelərini ictimai amallara qurban verənlər tarixin bütün mərhələlərində məhrumiyyətlərə düçar olublar və şairin fikrincə, bundan qətiyyən narahat olmağa, peşmançılıq hissləri keçirməyə dəyməz. Qardaşları Yusifi elə-belə, məzə xatirinə quyuya atmadılar, Yusif onlardan gözəl, ağıllı, ata yanında və cəmiyyət içərisində hörmətli olduğu üçün həsəd üzündən bu çirkin əmələ əl atdılar. Bu əməlləri ilə qardaşlarına zülm etdikləri kimi, doğma atalarına da cəfa etdilər. Oğul dərdi çəkməkdən ata kor oldu. Axırda qardaşlar da, Yusif də, Yəqub peyğəmbər də əməllərinə görə Allah-taaladan mükafatlarını aldılar və hər kəs əməlinin meyvəsini daddı.

“Atdılar nari-bəlayə həzrəti-İbrahimi”, niyə, nə üçün? Əqrəbasını bütpərəstlikdən əl çəkməyə, təkallahlığa, düz yola, salamat bir əqidəyə dəvət etdiyi üçün. Allah İbrahimə əməlinin müjdəsini verdi və onu yanar od içində salamat saxladı. Yəhya, Musa, İsa kimi Quranımızda adıçəkilən müqəddəs peyğəmbərlər qövmləri tərəfindən min cürə tənələrlə üzləşdi. Biri şəhid oldu, biri Firon tərəfindən zülm və sitəm gördü, digəri isə çarmıxa çəkildi, lakin heç biri insanlığa xidmətdən geri çəkilmədi.

*Hansı peyğəmbər olubdur çəkməsin yüz min əza,*
*Varmı bir Əhməd düçari-təni-əşrar olmasın?* [10, s.10]

– deyən M.Hadinin Məhəmməd peyğəmbəri, sonrakı beytlərdə Sokratı, Bəstamini, Həllac Mənsuru xatırlaması təsadüfi deyil. Adları qeyd olunanların zəmanəsində həqiqəti yaydıqları, doğru danışıb düzgün əməl sahibləri olduğundan hansı məhrumiyyətlərə düçar olmasını kim bilmir ki? Fəqət zülm eləyənlər nəhayətdə Allahın qəzəbinə tuş oldular, zülm olunanlar Tanrının mərhəmətini qazanaraq əbədiyyətə qovuşdular.

Qəzəlin son beytlərində oxuyuruq:

*Hansı aşiqdir cahanda naili-didari-yar,*
*Varmı bir pərvanə məhvi-şöleyi-nar olmasın?*
*Vermədi Fərhadə çərxi-bivəfa Şirinini,*
*Hadiya, kimdir fəna mülkündə xunbar olmasın?* [10, s.10]

Anlaşıldığı kimi, bu qəzəl başdan-başa insanı yaxşı əməllər sahibi olmağa çağırış niyyəti ilə yazılmışdır. Şairə görə, insan həmcinslərindən nə qədər pisliklər, yamanlıqlar görsə də, bəxti, taleyi ona yar olmasa da, ümidsizliyə qapılmamalı, yaxşı əməlindən əl çəkməməli, insanlığa xidmət vəzifəsini bir an belə unutmamalıdır.

## Nəticə / *Conclusion*

XX əsr Azərbaycan ictimai fikir tarixi və ədəbiyyatının tanınmış siması və milli Azərbaycan romantizminin banilərindən biri olan Məhəmməd Hadi yaradıcılığının ilk illərindən başlayaraq ömrünün sonuna qədər dövri mətbuatla sıx əlaqə saxlamış, müxtəlif mətbuat orqanları, o cümlədən “Dəbistan”la da əməkdaşlıq etmişdir. Sənətkarın dövrün uşaq mətbuat orqanlarından biri olan bu jurnalda nəşr etdirdiyi əsərləri barədə fikirlərimizi ümumiləşdirərkən belə bir nəticəyə gəlirik ki, bu əsərlərin dili sənətkarın yaradıcılığının ilk illərində “Həyat” qəzeti və “Füyuzat” jurnalında çap olunmuş şeirlərin dilindən sadə və anlaşıqlıdır. “Dəbistan” jurnalında M.Hadi, əsasən, jurnalın məramına uyğun əsərlər çap etdirmiş, məktəb, maarif və mədəniyyətin cəmiyyətin həyatında oynadığı rol barədə mülahizələrini bəyan etmiş, əvvəldən bəyan etdiyi estetik idealına sadiq qaldığını bir daha təsdiq etmişdir.

## Ədəbiyyat / *References*

1. Qəribli, İslam. Məhəmməd Hadi: həyatı və yaradıcılığı. – Bakı: Elm və təhsil, 2020.
2. Qəribli, İslam. Azərbaycan ədəbiyyatı: dünən və bu gün. – Bakı: Apostrof-A, 2022.
3. Məhəmməd Hadi. Lövheyi-təsviri-maarif. “Dəbistan” jurnalı, 2 avqust 1906-cı il, №8.
4. Məhəmməd Hadi. Məktəbi-daürül-ədəb. “Dəbistan” jurnalı, 17 avqust 1906-cı il, №9.
5. Məhəmməd Hadi. Maarifə dair. “Dəbistan” jurnalı, 19 noyabr 1906-cı il, №13.
6. Məhəmməd Hadi. Bədaeyi-təbiət. “Dəbistan” jurnalı, 7 dekabr 1906-cı il, №16.
7. Məhəmməd Hadi. Ricayi-vətən. “Dəbistan” jurnalı, 26 yanvar 1907-ci il, №1.
8. Məhəmməd Hadi. Arizuyi-dil. “Dəbistan” jurnalı, 21 fevral 1907-ci il, №3.
9. Məhəmməd Hadi. Fəzaili-insaniyyə: Məhbuslarımıza xitab. “Füyuzat” jurnalı, 20 fevral 1907-ci il, №10.
10. Məhəmməd Hadi. Sevgili şagirdlərimizə ərməğan. “Dəbistan” jurnalı, 6 mart 1907-ci il, №4.
11. Məhəmməd Hadi. Dünya saheyi-qəmdir. “Dəbistan” jurnalı, 6 mart 1907-ci il, №4.
12. Məhəmməd Hadi. Əsərləri. Birinci cild. – Bakı: Elm, 2020.
13. Məhəmmədzadə, Mirzəbala. Azərbaycan Türk mətbuatı. – Bakı: Bakı Universiteti nəşriyyatı, 2004.

## Стихи Мухаммеда Хади в журнале «Дабистан»

**Севил Гарашова**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: dr.alxansoy@mail.ru

**Резюме.** В творчестве Мухаммада Хади, одного из выдающихся деятелей в истории азербайджанской литературы и общественного мнения XX века, особое место занимают вопросы развития просвещения, науки, образования и культуры. Вдумчивый поэт в своих поэтических, публицистических и прозаических переводах придавал большое значение вопросам образования и культуры, сравнивал науку с солнцем, которое просветит человечество, а невежество со сплошной тьмой и адскими муками. Ученых людей он считал украшением нации и общества, к которому они принадлежат, а необразованных «бесполезной сухой древесиной», которую следует сжечь. М.Хади, подкреплявший свои взгляды на науку, школу, образование и прессу жизненными материалами и, по большей части, словами гениев, философскими и священными книгами, особенно Кораном, считал образование ключом к свободе и равенству, а прогресс и эволюцию нации видел в развитии образования, науки, просвещения и культуры. Трактовка этих вопросов была основной темой и идеей поэтических произведений М.Хади, опубликованных в журнале «Дабистан», а также в ряде работ, опубликованных в различных органах печати при его жизни.
**Ключевые слова:** образование, культура, нация, свобода, личность, прогресс